DOI: https://doi.org/10.36719/2706-6185/30/36-40

Türkan İsmayıllı
Naxçıvan Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
ismayilliturkanmehrac@gmail.com

MÜRƏKKƏB VƏ BUDAQ CÜMLƏLƏRDƏ AFFİRMATİV MODALLIQ

Xülasə

Məqalədə affirmativliyə modallığın alt kateqoriyası olması aspektindən yanaşılır. Burada affirmasiya ifadə edən modallığın mürəkkəb və budaq cümlələrdə ortaya çıxmasından, onları formalaşdıran leksik, sintaktik və praqmatik vasitələrdən bəhs edilir. "Do" köməkçi feilinin affirmativ modallıq olma xüsusiyyəti də analiz edilir. Qarşıya qoyulan problem müxtəlif nümunələrdən istifadə etməklə izah edilir.

Açar sözlər: *modallıq, təsdiqlənmə, dərəcəvi təsdiqlənmə, vurğulanan təsdiqlənmə*

Turkan Ismailli
Nakhchivan State University
PhD in philology
ismayilliturkanmehrac@gmail.com

Affirmative modality in compound and subordinate sentences

Abstract

In the article, affirmativeness is approached from the aspect of being a subcategory of modality. The emergence of the modality expressing affirmation in complex and subordinate sentences and the lexical, syntactic and pragmatic means that form them are discussed here. The characteristic of the auxiliary verb "do" being an affirmative modality is also analyzed. The problem is explained using different examples.

Keywords: *modality, affirmation, gradual affirmation, emphatic affirmation*

Giriş

Affirmasiya təsdiqlənmə, var olma, mövcud olma, mümkün olma mənası ifadə edən geniş kateqoriyanın adıdır. Modallığın digər növləri kimi affirmativ modallıq leksik, sintaktik və praqmatik olaraq ifadə edilə bilir.

Affirmativliyin modallığın növü kimi dominant kateqoriya olmasının səbəbi bu kateqoriyada modallığın danışanın fikir və münasibətlərinin qrammatikləşməsi və daha çox subyektiv münasibəti bildirməsidir. Subyektivləşmə nəticəsində modallar əsas feilin semantikası ilə sıx bağlı olmuşdur. Ona görə də modalları təyin etmək üçün, onlar gərək "dil səviyyələrində" analiz edilsin. Sintaktik, praqmatik və kontekstual faktorlar tamamlanmış modal proseslər çərçivəsində daima bir inkişafdadır. Affirmativ modallıq leksik gücləndiriciləri, çoxsaylı manipulyasiyaları, affirmativ konstruksiyaları önə keçirməklər, affirmativ formaları iki qata çıxarmaq, dəfələndirmə effekti verən bağlayıcılar təqdim etməklə gücləndirilə bilər.

Güclü affirmativ modallıq çox vaxt mürəkkəb cümlələrin tərkib hissələrində danışanın verilən məlumatın bir hissəsini vurğulamaq istədiyi üçün tətbiq edilir. Yəni cümlənin xüsusi bir hissəsinin yeni və mühüm olduğu üçün başa düşülməyinə ehtiyacı var.

What I wanted to note is that the learning a foreign language is an intellectual ability (Vurğulamaq istədiyim odur ki xarici dil öyrənmək intellektual bacarıqdır) (Marcin, 2013: 122).

What I wanted to say is that there are a lot of foreign students in our university (Demək istədiyim odur ki bizim universitetdə çoxlu xarici tələbə var).

The role of the portal is to satisfy its visitors with quality and reliable business information (Portalın vəzifəsi ziyarətçilərini keyfiyyətli və etibarlı biznes məlumatlarla təmin etməkdir).

Affirmativ modallıq məlumatın bir hissəsinin əhəmiyyətli fakt hesab edildiyi zaman, verilmiş məlumat bazası hesabına uzun formaların işlənməsi, üstünlük dərəcəsində olma prosesi və ya sıra saylarının işlədilməsi ilə müşayiət olunur.

"Cambridge Dictionary.com" is really the best site in the category "dictionary" ("Kembridc Lüğət.com", həqiqətən, "lüğət" kateqoriyasında ən yaxşı saytdır) (Palmer, 1990: 232).

Our university work is really difficult and we do not know if it could have been more difficult (Bizim universitet işimiz, həqiqətən, çətindir və biz bilmirik ki, bu daha çətin ola bilərdimi).

Struktural, semantik, stilistik faktorlar "do – etmək" feilinin affirmativ cümlələrdə işlənməsinə təsir etmiş olmalıdır. Dahl orta və erkən müasir ingilis dilində işlənməsini aşağıdakı fikirlərlə əsaslandırır.

1) *Qaydasız (put/set) kimi feillərin indiki və keçmiş zaman formalarını ayırmaq üçün;*
2) *İkinci şəxs formaları üçün;*
3) *Fikrin doğruluğunu vurğulamaq üçün;*
4) *Danışanın hisslərini gücləndirmək üçün;*

Təntənəli fikirlərdə

Do sadəcə sual və inkar funksiyasında yox, həm də güclü affirmativ modallığın işarəsi kimi çıxış edir. Əlavə olaraq "do" köməkçi feil daha prototip köməkçi modallarla mühüm qrammatik xüsusiyyətləri paylaşır. Digər modallar kimi "do" təsirsiz feildir və aşkar məsdər tərkibləri qəbul edir. Məsdər tərkibləri qəbul edən tək təsirisiz feillər köməkçi modallardır. *Do* onu tamamlayıcı olaraq başqa bir köməkçi modal qəbul eləmir. Amma əmr cümlələrində *do* mütləq işlənir. "*Do be quiet" (Sakit ol)! Do have something to eat"* (Bir şey ye) (hər ikisi qüvvətli).

Emfatik "do" iki nəfər danışanın diametrik olaraq əks mövqelərin ifadəsi, lakin eyni kontenti nəzərdə tutduğu zaman işlənir:

A: *You should have sent an email* (*Sən imeyli göndərmiş olmalısan).*

B: I did sent. But there was no answer (Mən göndərdim. Amma cavab yoxdur) (3).

Monoloji diskursda "do" ilə danışan "təbii" və "aşkar" kimi fikirlər irəli sürür. *Naturally, we do write an article once in a month (Normal olaraq, biz ayda bir dəfə məqalə yazırıq).*

Elan mənşəli kontekstlərdə də affirmativ "do" tez-tez işlənir. *Do learn to bake the perfect pizza in your own home oven* (*Ən mükəmməl pizzanı öz sobanızda bişirməyi öyrənin)* (qüvvətli) (Croft, 2001). Onun affirmativ modallığın işarəsi kimi funksiyası leksik mənşəyində də izlənilir. Köməkçi olmayan leksik "do" təsirli feildir, dinamik xüsusiyyətləri vardır və cümlələrdə mübtəda ilə işlənir. Məsələn, *She did solved mathematics exercises quite easly (O, riyaziyyat tapşırıqlarını kifayət qədər asanlıqla həll etdi).* Semantik olaraq bu elə bir feildir ki, hərəkəti, fəaliyyəti ümumilikdə göstərir. Köməkçi *do* digər tərəfdən təsirsiz feildir və həm sabit, həm də dinamik situasiyalarla uyumludur. Fakt olub olmadığını göstərmək istədiyimiz cümlələrdə işlədilir. Bu kontekstdə affirmativlik (*affirmativlik faktikilikdir*) metaforası ilə ifadə edilən faktikiliyə aid olur və "affirmativlik mövcudluqdur" metaforasının diqqətə alınması variantı kimi baxılır. Beləliklə, *the fact/do* ilə bağlı affirmativ gücləndiricilərə ingilis dilində *actually/in fact/indeed- aktual olaraq/faktiki olaraq/ əslində* daxildir və nümunə cümlə aşağıdakı kimidir.

Actually, Kate does dance perfectly well (Əslində, Keyt çox yaxşı rəqs edə bilir) (Palmer, 1990: 232). Beləliklə, "do"-nun güclü affirmativ modallıq kimi göstərməyin səbəbləri çoxdur. İngilis dilinin qrammatika kitablarında güclü affirmativ modallıq fenomeninə çox vaxt emphatic do/emfatik do kimi istinad edilir. "Emfatik do" kimi adlandırılan do-nun ingilis dilində bir çox işlənmələri var və o, bütün cümləyə vurğu əlavə edir.

My daughter does like egg. He really does! (Mənim qızım yumurtanı xoşlayır. O, həqiqətən, xoşlayır!) (Deborah, 2001).

Bundan əlavə affirmativ modallıq neqativ fikri qarşılaşdırmaq üçün (*You didn't buy a telephone, did you? Oh, but I did buy it (Telefon almadın, elə deyilmi? ah, amma mən onu aldım)*, əvvəlki neqativ fikir haqqında sualı aydınlaşdırmaq, (*He didn't take the flowers / Then who did take the flowers? (O, gülləri götürmədi / bəs gülləri kim götürdü?)* və güclü bir razılaşma göstərmək üçün də istifadə edilir. (*Although she knows a lot about me, I haven't actually met her (Baxmayaraq ki, o*

mənim haqqımda çox şey bilir, mən həyatda onunla heç rastlaşmamışam). Emfatik do-nun bütün işlənmələri ingilis dilində affirmativ modallığın nümunələri kimi göstərilə bilər. Qeyd edək ki, güclü affirmativlik nəzərdə tutulanda köməkçi modal həmişə vurğulu olur. Affirmativ modallıq tez-tez həmsöhbətin əvvəlki fikri ilə razılaşmadıqda və ya razılaşma işarəsi kimi də işlədilir. *She's terribly plays the guitar/Yes I agree, she does play (O, çox yaxşı qitara çalır / Bəli, razıyam, yaxşı çalır*). Alternativ olaraq fikrin doğru olduğunu əlavə bir zəiflədən informasiya ilə qəbul etmək üçün də işlədilə bilir. *She does make mistakes, but not very serious ones (O, səhvlər edir, amma çox ciddi deyil)*. İngilis dilində güclü affirmativ modallıq gələcək zamanda da işlədilir. *Call tomorrow! I will (Sabah zəng elə. Edəcəyəm).* Belə bir nəticəyə gəlmək olar ki, güclü affirmativlik köməkçi modal "*do/etmək*" ilə formalaşır, çox sayda heterogen mənalar ifadə edərək ümumi affirmativ xüsussiyyətlərə malik olur.

Beləliklə, köməkçi modal "do" affirmativ modallıq konstruksiyasının bir hissəsini təşkil edir. Danışan tərəfindən təkid edilən situasiyanın pozitiv dəyərləndirilməsinin əlavəsi olaraq fikri dəyişdirmək üçün işlədilir. *Do* feili tarixən çox dəyişkən olmuşdur. Bir çox dilçilər ingilis dilçilik tarixində bunun səbəbini aydınlaşdırmağa çalışmışlar.

İngilis dilində köməkçi feillərin pozitiv formaları affirmativ modallığı ifadə edə bilir, bu da affirmativ mənanın digər danışanlar tərəfindən təsdiqlənməsi və ya başqa danışanlar, hətta danışanın özü tərəfindən ona hər hansı bir şərh edilməsi ilə izah edilə bilər.

Terreca can speak Spanish? – Yes, she can. She can speak three foreign languages (Teresa ispanca danışa bilir? – Bəli bacarır. O, üç xarici dildə danışa bilir) (Levinson, 2000: 504).

I'll organize a party on Sunday. I really will (Mən bazar günü qonaqlıq təşkil edəcəyəm. Mən, həqiqətən, edəcəyəm).

Stein bu feilin dramatik artışını sosio-stilistik faktorlarla əlaqələndirmişdir.Affirmativlik əsas qrammatik kateqoriyalardan biri statusunda olduğu üçün onun ifadə vasitələrinin dalğalanması bizə təəccüblü gəlməməlidir. Kuteva hesab edir ki, "*do feili affirmativ modallığı ifadə etmək üçün köməkçiləşmə prosesində sintaktik affirmativ işarələri kimi inkişaf etmişdir"* (3). Affirmativ modal olaraq do-nun işlənməsi linqvistik strukturun dəyişilməsinə səbəb olumuşdur. Müasir ingilis dilində də affirmativ "*do"* güclü modallıq strukturlarda qorunub saxlanılmışdır.

Affirmativlik mental prosesdir və dil istifadəçiləri tərəfindən verilmiş fikrə əlavə edilir. Bütün bu nümunələr onu modallığın bir növü kimi görməyə əsas verir. Ona görə də affirmativ modallıq semantik məzmunludur və müxtəlif formalı struktural gerçəkləşmələrlə əhatələnir, çox zəif və mücərrəddən güclü və vurğulu ifadələrə qədər sıralana bilir.

Affirmativ modallığın işarələnməsində bənzərlik (homojenlik) boşluğu onun diaxronik olma faktından (zaman içində tarixi dəyişikliklərə bağlı olan) irəli gəlir. Bu mənada bu təkcə modallığın digər növlərinə deyil, ümumilikdə, bütün qrammatik kateqoriyalara oxşayır. Givon (2001) epistemik modallığı 4 yerə ayırırdı:

Əvvəlcədən güman edilən fikrin doğru olduğuna zəmanət verilən vəziyyətdə;

Real fikir irəli sürmə zamanı fikrin doğru olduğunu güclü şəkildə vurğulandığı vəziyyətdə;

Real olmayan fikir yürütmə mühakiməsinin mümkün olduğu zaman zəif şəkildə;

İnkar fikir bildirmə ilə fikrin güclü şəkildə yalnış olduğunu irəli sürüldüyü vəziyyətdə.

Affirmativ modallığın işlənməsi hallarını aşağıdakı kimi fərqləndirmək olar:

Fikrin və ya varlığın olduğunu vurğulamaq, təsdiqləmək. Aşağıdakı nümunələr affirmativ modallığın qısa və uzun formalarının paradiqmatik müxtəliflikdə ortaya çıxa bilməsini göstərmək üçün nəzərdə tutulmuşdur.

Make-up is really an art – Makyaj, həqiqətən, bir sənətdir (Levinson, 2009: 119).

The photographer Nur Chelik has once again confirmed to us that make up is really art – Fotoqraf Nur Çelik bizə bir daha təsdiq etdi ki, makyaj, həqiqətən, sənətdir.

Sometimes being honest is really worthless – Bəzən dürüst olmaq, həqiqətən, dəyərsizdir.

Güclü affirmativ modallıq isə digər tərəfdən fikrin fərdi subyektivliyilə əlaqəlidir və bu zaman ilkin olaraq müəllifin səsi subyektivləşərək individual subyektivliklər və digər subyektivliklərlə "mübarizədə" olur.

Fikrin doğru olduğunu təsdiqləmək, amma müəyyən məhdudiyyətlərlə:

Bu semantik qrupda fikrin pozitiv dəyəri vurğulanan güclü affirmativ modallıq işlətməklə baş verir, ancaq o, nisbətən daha ümumi kontekstdə məhdudlaşaraq müstəsna vəziyyət kimi göstərilir:

My brother's parting is painful, but life goes on (Qardaşımızla ayrılığımız ağrılıdır, amma həyat davam edir).

The market of hi-tech products is really expensive, but it isn't the most expensive (Yüksək texnologiya məhsulları bazarı həqiqətən bahadır, amma ən bahalısı deyil) (Deborah, 2001).

Bu kontekstlər sübut edir ki, güclü affirmativ modallıq təsvirin və ya fikrin gizli olan mənalarını təkzib də edə bilir. Onun ilkin funksiyası burada qarşılıqlı anlaşma ifadə etməkdir. Burdan da görünür ki, affirmativ modallığın işlənməsi inkarlığın mümkünlüyü ilə əks qavrayışa alternativ kimi hərəkətə keçir.

Əks arqumentlər olsa da, fikrin doğru olmasını təsdiq etmək:

Aşağıdakı nümunələrdə üçüncü cümlə əvvəlki cümlə ilə (2) eyni kontekstdən çıxarılmışdır və köməkçi modalın mənasını aşkar şəkildə təyin edir. Belə görünür ki, danışan eyni mənanı ifadə edə bilən əlavə leksik ifadələr (confirmed) və ya daha qısa yolla affirmativ modallıq tətbiq etməklə həyata keçirir.

Health is really still in chocolate (it turns out that chocolate is healthy, in spite of earlier information) (Sağlamlıq, həqiqətən, şokoladdadır (əvvəlki məlumatlara baxmayaraq şokoladın sağlam olduğu ortaya çıxır) (Jackendoff, 1983: 683).

(It turns out that) Nur Chelik is really Mango model (Məlum olur ki, Nur Çelik, həqiqətən, Mango modelidir) (Levinson, 2000: 504).

İnkara aşkar qarşılıq. Burada affirmativ modallığın işlənməsi qarşılıqlı (qütbləşən) inkarlaşdırmanın təqdim edilməsi ilə təyin edilir.

It is forgiven, but not forgotton! (Bu bağışlanır, amma unudulmur)!

Nümunələr göstərir ki, güclü affirmativliyin bu tipləri alternativ pozitiv mövqe təqdim edən mənbə kimi xidmət edir. Beləliklə, bu zaman inkarlığın təkzibi ifadə edilə bilər. Bu cür təkzibləri danışan elə təqdim edir ki, həmsöhbətindən daha çox bilgisi və idraki xarakteri olduğunu ifadə etmiş olsun. Affirmativ modallığın bu alt tipində danışan biraz həmsöhbətinin səhv başa düşülməsini, yanlış qavrayışını düzəldən insan kimi görünür və bəzi şeyləri bildiyini və ya xüsusi bir baxışı olduğunu göstərməyə çalışır (Narrog, 2015: 685).

Nəticə

Beləliklə, affirmativ modallığın faktiki real və başa düşülən güclü modallıqla aşkar bir funksional əlaqəsi vardır. O, pozitiv qütblük ifadə edir və digər mühakimələrlə bərabərləşə bilmir. Affirmativ modallıq dildə şəxsin daxili düşüncəsi ilə bağlı olaraq, danışanların subyektiv iştirakı ilə təqdim etdikləri fikrə müəyyən baxış irəli sürürlər. Linqvistik vasitələrin affirmativ modallığın ifadəsində müxtəlifliyi və semantikası fərqli ola bilir . Pozitiv mənanın çox bəlli olmayan işarəsindən başlamış güclü affirmativ mühakimələrin çoxçeşidliliyinə qədər sıralana bilir. Affirmativ modallığın başa düşülməsi qrammatik strukturlar arxasındakı mücərrəd incə mənaların tədqiqində görünür (10).

Ədəbiyyat

1. Marcin, G. (2013). The Semantics of Affirmation Serbian, Other Slavic Languages and English in Cognitive Analysis. Rzeszow, 122 p.
2. Palmer, F.R. (1990). Modality and the English Modals. London/New York: Longman, 232 p.
3. https://www.theguardian.com/lifeandstyle/wordofmouth/2011/sep/08/
4. Croft, G.W. (2001). Radical Construction Grammar. Syntactic Theory in Typological Perspective. Oxford University Press.
5. Deborah, P. (2001). The TOEF Preparation course for the TOEFL tests with answers. New York: Pearson Education.
6. Levinson, C.S. (2000). Presumptive Meanings. Cambridge: MIT Press, 504 p.

7. Levinson, C.S. (2009). Space in Language and Cognition Cambridge: Cambridge University Press, 119 p.
8. Jackendoff, R.S. (1983). Semantics and Cognition. Cambridge: M.I.T. Press, 680 p.
9. Narrog, H. (2015). Modality, mood, and change of modal meanings: A new perspective. New York: Cognitive Linguistics Journal, pp.677-731.
10. NHK World-Japan / https://www3.nhk.or.jp/nhkworld/

Göndərilib: 10.09.2023 Qəbul edilib: 18.11.2023